# NURLANIN ANTEY GÜCÜ

## *Yaxud Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" sənədli povesti haqqında düşüncələr*



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

### I hissə

I Qarabağ savaşı zamanı hadisələr çox xaotik, qarışıq bir dövrə təsadüf edirdi. Güclü mərkəzləşmiş idarəetmə sistemi, demək olar ki, çökmüşdü. Sovet dövləti bütün istiqamətlərdə böhran keçirirdi. Ayrı-ayrı ərazilərdə baş verən etirazları başıpozuq qüvvələrin hərc-mərclik yaratmaq istəyi ilə törətdikləri qarışıqlığın qarşısını alacaq qüvvə meydanda görünmürdü. Beləliklə, keçmiş Sovet dövlətinin ən müxtəlif ərazilərində ayrı-ayrı respublikalarda seperatçı qüvvələr baş qaldırmışdı. Demək olar ki, hər ərazi ayrılıqda kimlərsə tərəfindən idarə olunur və başqasının heç bir tələb və istəyini qəbul etmirdi. Azərbaycanda da bu vəziyyət hökm sürürdü. Bir tərəfdən 88-ci ildə başlayan erməni seperatçılarının etiraz nümayişləri, bir tərəfdən də ölkəni müxtəlif tərəflərdən hədələyən qüvvələrin qara niyyətləri Azərbaycanı didib-sökməkdə idi.

Tezliklə Dağlıq Qarabağ ərazisində seperatçı erməni qüvvələri toparlanmağa başladı. Yerevandakı teatr meydanında ərazi iddiaları ilə çıxış edən erməni ideoloqları münaqişə ocağını Xankəndinə, o vaxtkı Stepanakert adlanan Dağlıq Qarabağın mərkəzinə köçürdü.

Qarabağ komitəsi, "Krunk" təşkilatları, digər seperatçı qüvvələr təkcə etirazlarla kifayətlənmir, ən müxtəlif yollarla silahlanır və hər şeydən göründüyü kimi Azərbaycana qarşı düşünülmüş müharibəyə hazırlaşırdılar. Təəssüf ki, o vaxt Azərbaycanda bu düşmən qüvvələrin niyyəti qədərincə qiymətləndirilmədi. Sərt və qətiyyətli tədbirlər görülmədi. Hələ üstəlik indiki Ermənistan ərazisindən, yəni qərbi Azərbaycandan da yüz minlərlə insan yerindən-yurdundan didərgin salındı. Onların bütün maddi imkanları əlindən alınaraq bir çox hallarda qətllərlə, qarətlərlə müşayiət olunan zorakılıqla yerlərindən, yurdlarından qovulub çıxarıldılar. Bütün bunların hamısı göstərirdi ki, Azərbaycanı yaxın gələcəkdə dəhşətli faciələr gözləyir.

Bir sözlə, I Qarabağ müharibəsi belə bir dumanlı siyasi vəziyyətdə başlamalı oldu. Həmin dövrdə hələ ki, nizami ordu da yox idi. Ayrı-ayrı bölgələrdə erməni quldurlarına qarşı dura biləcək özünümüdafiə batalyonları yaradılmışdı. Demək olar ki, əsasən vətənpərvər, qoçaq, cəsarətli oğullar bu dəstələrə rəhbərlik edir, erməni vandallarının qəsbkarlıq niyyətlərinə qarşı müqavimət göstərməyə çalışırdılar.

Təəssüf ki, o vaxt belə bir ağır siyasi və hərbi böhran şəraitində hakimiyyət iddiaları da meydana çıxdı. Ayrı-ayrı qüvvələr Azərbaycanda hakimiyyətə gəlmək niyyətlərini heç gizləmirdilər də. Bakıda tez-tez izdihamlı mitinqlər olur, hakimiyyət qarşısında ən sərt tələblər qoyulur. Hadisələrin normal inkişafı nəzərə alınmırdı.

Mən həmişə deyirəm ki, Bakı Azərbaycanın beynidir, düşüncə mərkəzidir. Əgər Bakıda bütün mənəvi mühit müəyyən nizamda olmasa, onda heç yerlərdəki hadisələrin gedişatı da nəzərə alınmayacaq. Bu həqiqətən belə olub. Əvvəlcə Şuşa, Laçın, Kəlbəcər işğal altına düşdü. On minlərlə insanın yerindən, yurdundan didərgin olması, kütləvi qırğınlar, insanların qeyro-adi dərəcədə dəhşətli axınına səbəb oldu. Hakimiyyət dəyişilmələri də vəziyyətə heç bir müsbət təsir göstərə bilmədi. Hələ üstəlik Azərbaycanın digər bölgələrində də mərkəzdənqaçma meyilləri gücləndi. Əvəzində düşmən tərəf bu vəziyyətdən məhaərətlə yararlandı. Artıq 93-cü ilin yayı gəlmişdi. Ölkə hər bir cəhətdən çökmüşdü. Belə bir vəziyyətdə xalq yeganə çıxış yolunu Heydər Əliyevi hakimiyyətə gətirməkdə görürdü. Demokratiya adı altında müxtəlif məram və məqsədlərlə aranı qarışdırmağa çalışanlar hələ də kifayət qədər güclü idi. Ulu öndər mənəvi mühiti nizamlamaq üçün bir çox tədbirlər görməli oldu. Ancaq təəssüf ki, artıq Qarabağ və ətraf rayonları tamamilə işğal altına düşmüşdü. Minlərlə Azərbaycan gənci vətən uğrunda savaşaraq həlak olurdu. İndi də Qarabağ və ətraf rayonların ərazilərində kütləvi məzarlıqla aşkar olunur. Bütün bunlar o deməkdir ki, ermənilər hər bir vəziyyətdə özlərinin yırtıcı sifətlərini, qəddarlıqlarını göstərməkdən çəkinmirdilər.

Sonra atəşkəs müqaviləsi imzalandı. Bu, Azərbaycan üçün yeganə çıxış yolu idi. Ölkəni siyasi cəhətdən böhrandan çıxarmaq, iqtisadi yüksəlişinə nail olmaq, mənəvi mühiti tarazlamaq üçün çox mühüm tədbirlər görüldü, neft müqavilələri bağlandı. Eyni zamanda dünyanın beynəlxalq təşkilatları ilə əlaqələr gücləndi. Azərbaycanın işğal altına düşmüş əraizlərinin azad olunması üçün dünyanın demokratiya mərkəzlərinə müraciətlər olundu. BMT dəfələrlə qətnamələr, qərarlar qəbul etdi işğala son qoyulması üçün. Ancaq faşist Ermənistan və onun təmsilçiləri bu haqlı tələblərə heç bir əhəmiyyət vermirdi. Nəhayət, bu proses otuz ilə qədər vaxt apardı. İlham Əliyev Ali Baş Komandan olaraq nəhayət ki, Azərbaycan torpaqlarının işğaldan azad olunmasının qətiyyətli tələbi ilə əks hücum əmri verdi. Sürətli döyüş taktikası, yeni nəsil Azərbaycan gənclərinin təmsil etdiyi ordu, cəsarətli hücumla erməni qüvvələrinin bağrını yardı. Alı Baş Komandan bu əməliyyata dəmir yumruq adı vermişdi.

Bir məsələni də qeyd etmək lazımdır ki, II Qarabağ savaşının əsas özəyi, əsas qüvvəsi yeni Azərbaycan gəncliyi idi. Onlar müstəqillik zamanında dünyaya gəlmiş oğullar idi. Bunu da fərəhlə qeyd etmək lazımdır ki, bu yeni nəsil Azərbaycan gəncləri yüksək vətənpərvərlik ruhunda tərbiyə olunmuş, milli qürur hissi ilə böyümüşdülər.

Onlardan biri də leytenant Nurlan Nadir oğlu Həsənov idi.

Nurlan Həsənov 19 may, 1991-ci ildə Şuşa şəhərində anadan olmuşdu. Gənc zabit kimi vətən uğrunda savaş onun əsas amalı idi.

Gənc şair, publisist, çox istedadlı yazar Sevindik Nəsiboğlunun "Zəfəri nurlandıran Nurlan" adlı poetik-publisistik kitabında Nurlanın döyüş yolundan bəhs olunur.

Bir şəxsiyyət kimi, bir azərbaycanlı zabit kimi Nurlan kim idi? O hansı ruhda böyümüşdü və necə savaşmışdı - bütün bu suallarla cavab vermək üçün gərək Sevindik Nəsiboğlunun ilhamla yazdığı və nəfis şəkildə çap etdirdiyi "Zəfəri nurlandıran Nurlan" kitabını diqqətlə oxuyasan. Onu deyim ki, mən S.Nəsiboğlunun bir neçə kitabını çap etmişəm və hər dəfə onun kitabları nəşr üçün əlimə gələndə çox diqqətlə oxumuşam. Ayrı-ayrı səhifələr üzərində düşünmüşəm. Onun "Möhtəşəm zəfərin nişanəsi" adlı 700 səhifəlik kitabı indi də gözlərimin önündədir.

Sevindik Nəsiboğlu çox şərəfli bir missiya daşıyır. O, adını çəkdiyim kitabında onlarla vətən fədaisinin maraqlı obrazlarını yaradıb, onların həyat yolunu izləyib, döyüş yollarını öyrənib. Onu da deyim ki, Sevindik Nəsiboğlunun müharibə qəhrəmanları haqqında yazıları quru xronikal xarakter daşımır. O yeri gəldikcə həmin qəhrəmanların mənəvi mühitlərini, düşüncələrini də özünün duyğulanmaları ilə süsləyir. Sevindik birinci növbədə şairdir. Buna görə də onun publisistikası da çox poetikdir. Oxucu S.Nəsiboğlunun hər hansı bir yazısını oxuyanda varlığına qəribə duyğular hopur. Hər bir oxucuya elə gəlir ki, obrazları, fəsilləri dəyişən poema parçalarını oxuyur. Bəli, S.Nəsiboğlunu yazıları çox poetik ruhda qələmə alınıb.

"Zəfəri nurlandıran Nurlan" kitabında da onun yaradıcılıq üslubuna sadiq qaldığı hiss olunur. Kitabın ilk səhifələrindən öyrənirik ki, Nurlan təhsilli bir gənc olub. Azərbaycan Texnologiya Universitetini bitirib. Ailə qurub, bir qız və bir oğul atasıdır. 2012-2014-cü illərdə əvvəlcə Naxçıvan, sonra Gəncə şəhərlərində mövcud olan N saylı hərbi hissədə xidmət edib. Doğrudur, sonralar könüllü şəkildə ordudan təxris olunsa da, II Qarabağ savaşı başlayandadöyüşdən kənarda qalmağı özünə sığışdırmadı. Nurlanın döyüş yolu müharibənin ilk günündən başlamışdı. Döyüşün ən qanlı nöqtələrdə, ölüm-dirim savaşı gedən səngərlərdə qəhrəman bir komandir kimi rəhbərlik etdiyi hərbi qüvvəni cəsarətlə döyüşə aparmışdı. Cəbrayılın, Füzulinin, Xocavəndin azad olunmasında böyük şücaətlər göstərmişdi. Məlumdur ki, mənfur düşmən Tərtərdən ta Araza qədər Ağdam, Füzuli ərazisindən keçən möhkəmləndirilmiş istehkam xətti qurmuşdu. Bu xəttin üstündə düşmən yüz minlərlə piyada və tanklar əlehinə minalar düzmüşdü. Müasir istehkam xətlərinin qaydalarına uyğun müqavimət mərkəzləri yaratmışdı. Ancaq onlar "bu istehkam xəttini heç kim yara bilməz" fikrində yanılmışdılar. Ona görə ki, igid Azərbaycan əsgərinin iradəsini, gücünü nəzərə almamışdılar. Birinci Qarabağ müharibəsindən dişlərində şirə yeri qalmışdı. Onlara elə gəlirdi ki, Azərbaycan ordusu bu ölüm xətti ilə qarşılaşan kimi ilk itkilərindən sarsılacaq, qorxacaq və irəliyə gedə bilməyəcək. Ancaq belə olmadı. Azərbaycan ordusu, demək olar ki, həmin istehkam xəttini çox qısa müddətdə keçdi.

Nurlan və onun döyüş dostları sürətli hücumla Cəbrayılı işğaldan azad etdi. Arxasınca Füzulini düşməndən təmizlədi. Sonra Xocavənd uğrunda döyüşlər başladı. İndi heç kimsəyə sirr deyildi ki, Azərbaycan ordusunun bu sürətli hücumununqarşısında dayanacaq bir qüvvə yoxdur. S.Nəsiboğlu kitabın əvvəlində Nurlan Həsənovun qəhrəmanlıq yoluna qısa bioqrafiya faktları ilə nəzər salır. Onun 1 oktyabr 2020-ci il tarixinə qədər, yəni Nurlan Həsənovun həlak olduğu günə qədər keçdiyi igidlik yolunu həmin yerləri öz öz addımları ilə gəzirmiş kimi izləyir, dəqiqliklə faktlara istinad edərək maraqlı təsvirlərlə yazıya gətirir. Təsadüfi deyil ki, Sevindik Nəsiboğlunun tərənnüm etdiyi bu igid Ali Baş Komandanın diqqətindən də kənarda qalmır. "Cəbrayılın, Xocavəndin, Füzulinin azad edilməsinə görə" medalları ilə təltif olunur. Üçüncü dərəcəli "Vətənə xidmətə görə" medalı ilə təltif olunur, "Vətən uğrunda" medalı ilə təltif olunur və bir çox başqa təltiflərlə də Nurlanın adı tarixi yaddaşımızda əbədiləşir.

S.Nəsiboğlu bundan sonra Nurlanı böyüdən mənəvi mühitə xüsusi diqqət yetirir. Nurlanın vətən uğrunda mərd bir mübariz kimi yetişməsində onun mühitinin xüsusi əhəmiyyəti olduğunu göstərir.

S.Nəsiboğlu şair publisistdir, yazıçıdır. Onun təsvirlərində elə yerlər var ki, sanki ustad bir yazıçı qələmindən çıxıb. Həmin parçalardan bəzilərini burada məmnuniyyətlə diqqətə çəkərdim. Çünki Sevindik Nəsiboğlunun yazıçılığı məhz belə parçalarda üzə çıxır. Başqalarını deyə bilmərəm, "Zəfəri nurlandıran Nurlan" kitabından təqdim etdiyim parçanı sözü bilən hər kəsin uğurlu sənət lövhəsi hesab edəcəyinə şübhəm yoxdur: "Çox insan bu sınaqdan keçdi, onlardan bəziləri üzüağ keçdi, digərləri isə keçmədi və ya keçə bilmədi... Onlar doğulanda çiy doğuldular, həyatın qanunları onlara şərait yaratdı ki, onlar yandırıcı odda yansınlar, bişsinlər, həyatı qavrasınlar; öyrənsinlər. İnsan bu qanunlara əməl edəndə təkcə üzünün nuru ilə yox, yaxşı əməlləri ilə, insanlara bəslədiyi hörmətlə, sevgiylə, hətta həyatda olmasa, ölsə belə daim yaşayır. Yox, əgər sadalananları etməsə, bu qanunun digər adı olan sınaq onun qırtlağını yaşayan zaman cənginə alır və onu yaşayarkən əbədi ölü edir".Sevindik Nəsiboğlunun öz qəhrəmanlarını tərənnüm edən dili nə qədər yumşaq, məhəbbət aşılayan duyğularla zəngindirsə, düşmənə nifrət təlqin edən hissləri, həyəcanları da bir o qədər sərtdir. Onun duyğuları pakdır, təmizdir. Qəhrəmanlarına həsr etdiyi hər hansı bir yazıda ülvilik hissləri aşılayır. Özü qəhrəmanlarını sevdiyi kimi, başqalarına da onları sevməyi təlqin edir.

*(Davamı 11-ci səhifədə)*

# NURLANIN ANTEY GÜCÜ

*(Əvvəli 10-cu səhifədə)*

Bu yerdə onu da qeyd edim ki, S.Nəsiboğlu düşmənə öz təsəvvürü qədər nifrət hissləri bəsləyir. Yağılar nə qədər bizə qəddar olubsa, S.Nəsiboğlu da düşmənə qarşı bir o qədər qəddardır. O, düşməni bağışlamağın tərəfarı deyil. Çünki S.Nəsiboğlu yaxşı görür, düşmən təkcə bizim torpaqlarımızı yaralamayıb, yerimizi, yurdumuzu talan etməyib, həm də varlığımıza əl uzadıb, insanlar didərgin olmaqla həsrət iztirabları içərisində yanıb qovrulublar. Bütün bunlar əvəzi ödənilə bilməyəcək qədər dəhşətlidir. Elə məhz bu cəhətinə görə düşmən bağışlanmazdır.

Əlbəttə, söhbət onda deyil ki, Sevindik sülh istəmir. Yox, Sevindik əslinə qalsa, heç müharibə istəmir. Onun hələ gənc, həyatın daha dərin təzadları ilə qarşılaşmamış mənəvi mühiti bütün dünyada insanların sülh və əmin-amanlıq içərisində yaşamasını istəyir. Ancaq neyləmək olar ki, biz elə qəddar insanlarla qonşu olmuşuq ki, onlara nə qədər ağır dərslər versək belə, yenə özlərinə yığışmırlar.

Müharibənin necə qurtardığını yaxşı xatırlayırıq. Onlar yalvarırdılar, müharibənin dayandırılmasını istəyirdilər. Dünyanın bütün güc mərkəzlərini özlərinə köməyə çağırırdılar. Ancaq bunların heç bir faydası olmadı. Müzəffər ordumuz onlara heç vaxt unudulmayacaq tarix dərsi keçdi. S.Nəsiboğlu vətən sə vegi anlayışlarını bir yerdə qavrayır və bunları bir-birindən ayrı təsəvvür etmir. Onun düşüncəsinə görə, torpaq olan yerdə, yurd olan sevgi var, sevgi olan yerdə vətən var. Əgər bunlardan biri yoxdursa, onda digəri də yoxdur. Arada həsrət qalır, yanğı qalır, iztirab qalır, demək, insan öz sevgisi ilə torpağına qovuşmalıdır ki, tərəflər özünü rahat hiss etsin, iztirab insanları yandırıb məhv etməsin. Sevindik doğru olaraq yazır:“Həyatın qanunlarından biri də sevgidir. İnsanlar sevgini müxtəlif mənalarda başa düşürlər. Belə ki, bəzi insanlar üçün sevgi anaya, bəziləri üçün sevgi ömür-gün yoldaşına, bəziləri üçün ataya, qardaşa, bacıya, bəziləri üçün isə havaya, suya, göyə, yerə və s. yönəldilir. Bəzi insanların sevgisi torpağadır, vətənədir. Üstündə gəzib, altında uyuyacağı torpağa... O insanlar torpağına, vətəninə, boya-başa çatdığı yerə, elə, obaya, oymağa sona qədər bağlı olur, onların bu sevgiləri tükənməzdir. Onda onların həyatı tamamilə torpaq, vətən, yurd üzərində qurulur. Lazım gələndə bu insanlar həmin sevgiləri üçün canlarından, sevdiklərindən, işlərindən, yaşadıqları bu dünyada onlara əziz olan hər şeydən əl çəkərlər... Onlar “Təki torpaq, vətən, yurd, el, oba sağ olsun! Təki üstündə gəzdiyim torpağın altında rahat uyuya bilim...” deyərək sonuna qədər özlərini torpağına, vətəninə, elinə, obasına, xalqına həsr edərlər. Həyat onları hər zaman sınayar, hətta üzərində ilk qədəm basdığı torpağnı da əllərindən alar. Lakin o insanlar onlar üçün zəruri, əziz olan hər şeydən əl çəkər, inamından, sevgisindən əl çəkməz və sonu ölüm olsa belə, uğrunda canlarını fəda etdikləri o torpağa çatarlar. Onda həyat qanunu sınağa çevrilər və sınağın sonu əbədi cənnət, əbədi həyat olar. Onlara bir ad verilər: Yer üzündə, işıqlı dünyada cənnəti təmsil edən, əməlləri və sevgiləri ilə cənnəti qazanan cənnət insanları...”.Sevindiyin yazılarında elə onun təqdim etdiyi mətndən də görünür ki, yerinə yurduna can atan insanın bircə ali məqsədi var. O, yerinə, yurduna, torpağına qovuşmalıdır. Yalnız bu zaman insan həyatın sınaqlarına qarşı mübarizədə dözümlü olar, güclü olar.

Qədim yunan əfsanələrindən birində deyildiyi kimi, qəhrəmanın nə qədər ayaqları yerdədir, o məğlubedilməzdir. Antey qədim yunan əfsanəsindəki torpaqdan güc alan qəhrəmanın adıdır. Sevindik Nəsiboğlunun düşüncəsinə görə Nurlan və Nurlan kimi oğullarımız da məhz öz yerindən, yurdundan, vətənindən güc alan qəhrəmanlardır. Sevindiyin təsvirlərinin belə bir məntiqi nəticəsi var ki, ordumuz mütləq qalib gələcəkdi, çünki onlar doğma torpağın üstündə vuruşurdular, onların güc mənbəyi elə öz torpaqlarımız idi. S.Nəsiboğlu öz qəhrəmanlarını - yəni vətən uğrunda savaşaraq həlak olan şəhidləri əbədi dünyanın, müqəddəs dünyanın sakinləri hesab edir. Yəni onları tanrı yanındakı cənnətdə görür.

S.Nəsiboğlunun yazılarının ruhu bizə təlqin edir ki, övladlarımızı vətən üçün vaxtında hazırlayaq. Elə Sevindiyin qəhrəmanı Nurlanın mənsub olduğu ailə kimi. Gənc yazıçı bu ailəni məhz övladlarını vətənsevərlik ruhunda böyütdüyü üçün tərənnüm edir və onlar haqqında ən duyğulu sözlərlə danışır: “Haqqında bəhs edəcəyim cənnət insanlarından biri olan şəhidimiz də alınmaz qalamız olan Şuşamızda, Şuşamızın çətin zamanında, vahiməli tank-top səsləri altında bu dünyaya gəldi, sonda hər nə olursa, olsun, düşmənə nifrətiylə, vətənə sevgisiylə onu Şuşasından, ruhundan ayıran düşmənə qalib gəldi və azad Şuşa göylərində əbədi ömür sürməli oldu... Bu, cənnət insanı - şəhid leytenant Nurlan Həsənovdur!”. Bu qeydlərin hər bir parçasında zəkalı bir gəncin ürəyi döyünür. O sanki təsvir və tərənnüm etdiyi qəhrəmanın özü ilə birgə böyüyür. Onun varlığında daşıdığı hissləri öz qəlbinə köçürür. Qəlbinin atəşində, odunda bişirir. Və yenidən həmin düşüncələri öz qəhrəmanına sevgi ilə təzədən yazıya gətirir. Əgər diqqət edə bilsəydik, görərdik ki, Sevindik Nəsiboğlunun qəhrəmanı Azərbaycan xalqının idealı olan Şuşa ilə sanki bir məcrada həyata can atır. Elə bil ki, Şuşa Nurlanın varlığına köçüb. Biz Nurlanın timsalında yeriyən, yüyürən, vətən uğrunda savaşan və bu savaşdan geridönməz inadla qələbəyə can atan Şuşanın özünü görürük.

Müharibə xronika-larından bəhs edən sənədli filmlərdə Şuşanın işğaldan azad edilməsi zamanı qələbəni təmin edən bir çox şərtlər şərh olunur. Həmin şərtlərdən biri də elə Şuşanın özünün qəhrəmanlıq obrazının olmasıdır. Nə qədər ki Şuşa işğalda idi, çırpınırdı. Qollarını bağlamış qandaldan azad olmaq istəyirdi və demək Şuşa özü də döyüşçülərimizin ruhuna hoparaq qələbəyə can atırdı. Söz yox ki, Nurlan da son məqsəd olaraq Şuşaya can atırdı. Əlbəttə, oktyabrın birində Füzuli uğrunda savaşlarda həlak olmasaydı, Şuşaya birinci daxil olanlardan biri olacaqdı.

Sevindik Nəsiboğlu Nurlanın ailəsini, onların necə bir vətənpərvər oğul böyütmələrindəki xidmətlərini də unutmur. Ailənin mənəvi mühitinə xüsusi diqqət göstərir. Çox böyük hiss və həyəcanla Nurlanın qəhrəman obrazını oxucuların düşüncəsində canlandırmaq üçün ailə mühitinin təbiətinə nüfuz edir, Nurlanın atası, anası haqqında əhatəli söhbət açır: “Nurlan Nadir oğlu Həsənov 19 may 1991-ci ildə Azərbaycanımızın dilbər guşəsi olan Şuşa şəhərində Nadir atanın və Həqiqət ananın ailəsində dünyaya göz açdı. Onu, bu dünyanın cənnətində doğulan cənnət parçasına Nurlan adının verilməsi də heç təsadüfi deyildi. Məsum gözləri açılıb torpağı, yeri-göyü gördüyü andan sanki sözün əsil mənasından gözləri həqiqətə, haqqa, ədalətə, qəhrəmanlığa, vətənə sonsuz sevgiyə açıldı. Yenicə dünyaya gələn bu körpə elə öz körpə hissiyatı ilə də Şuşasına, bu dünyanın cənnətinə aşiq oldu, bir könüldən min könülə vuruldu Şuşamıza, onun sərin, gözəl havasını doya-doya ciyərlərinə çəkdi. Bu anların davam etməsi üçün həyatın sınağı Həsənovlar ailəsinə 6 ay möhlət verdi. Lakin bu 6 aylıq möhlət özü də bir sınaq idi. Nurlan vətənimizin ən çətin zamanında dünyaya göz açmışdı. Onda vətənimizin dilbər guşəsi Qarabağın, cənnət Şuşanın başının üstünü yavaş-yavaş qara buludlar alırdı. Nurlangilin evləri də Topxana meşəsinin lap yaxınlığında idi. Oradan nə səfalı yerlər görünür, xoş rahiyəli dağ havası gəlirdi, nə də yaşıllıqlara qərq olmuş mənzərə görünürdü. Erməni vandalları Topxana meşəsini qırıb məhv edir, hər yeri top, tank atəşinə tutur, Şuşanı həm təmiz havasından, həm də sağlam ağciyərindən edirdi. Körpə Nurlan da bu günlərə heç alışa bilmədi. Doğulandan cəmi 6 ay Şuşada qaldı, bu 6 ayın bir günü də olsun rahatlıq tapa bilmədi o balaca, körpə Nurlan. Hər gün atəş səsləri, torpağın, havanın, suyun yalvarışı, sıldırım qayaların çəkdiyi qıy...”. Gənc müəllifin özünüifadə gücü, özü də təkcə gücü yox, hissləri, həyəcanları bu sözlərdə bütün əhatəliliyi ilə üzə çıxır. O, vətənin qayalarını, daşlarını, torpağını, hətta havasını belə canlı varlıq kimi təsvir edir.




Onun təsvirlərində Topxana meşəsi erməni vandallarının qəddarlığı qarşısında fəryad edir. Elə bil ki, onu müdafiə edəcək oğulların hər birini haraylayıb çağırır. Sevindik Nəsiboğlu bu təsvirlərindən əsl vətənpərvər bir gənc kimi görünür. Mən bu təsvirlərin yaratdığı təəssürat altında bütün səmimiyyətimlə qeyd edirəm ki, gələcək nəsillərin hər bir şuşalısı, qarabağlısı və demək, bütövlükdə azərbaycanlısı hiss edəcək ki, vətəni təkcə döyüşçü qorumur, həm də döyüşçünü ruhən, mənən silahlandıran yazıçısı qoruyur, şairi qoruyur.

S.Nəsiboğlu təsvirlərinə elə bu emosiya ilə davam edir. Onun yazısını o qədər canlılıqla görürük ki, sanki sözləri nəfəs alır. Sözləri diridir.

Sevindiyin yazılarında danışan yer, yurdla birgə yazıçının özünün də vətən sevgisi ruhumuzu çulğayır, bizi bütün varlığımızla vətənin taleyi haqqında düşünməyə səfərbər edir. Biz bütün aydınlığı ilə görürük ki, mənfur düşmənlə üz-üzə qalan təkcə xalq deyil, həm də canlı varlıq kimi bizdən kömək uman və talan edilmiş, dağıdılmış şəhərlərimizdir, kəndlərimizdir. Yandırılmış, köhnə fidanlarına qədər məhv edilmiş meşələrimizdir. Quruyan bulaqlarımızdır. Göz yaşı tökən çaylarımızdır.

Sevindik sözünə davam edir: “Mənfur düşmənlə üz-üzə qaldığı hər gün, hər gecə Nurlan gülümsəyə bilmirdi. O, hey ağlayır, haray, qıy, bəlkə də nərə çəkirdi. Hamı əvvəllər bu ailəyə arzulamışdı ki, evlərindən uşaq səsi, körpə nəfəsi gəlsin. Amma bu gələn səs bir evin yox, bir şəhərin, bir elin, bir millətin, ulu bir xalqın ədalətsizliyə, zülmə, zalıma qarşı ahı, ağısı, üsyanı idi. Körpə Nurlanı heç kəs sakitləşdirə bilmirdi. O meşələrin arxasında məskən salan, onun tanıyıb eləmədiyi düşmən ona illərin ağrısını verəcəkdi. Bu hələ harası idi? Yaşanılmayan bir yerə çevrilən Şuşa və hər gün səngərlərdəki əsgərlər kimi ölüm-dirim savaşına çıxan Həsənovlar ailəsi... Bundan sonra tək yol qalırdı: döyüşlər bitənə qədər doğulub-böyüdükləri, çörəyini yeyib suyunu içdikləri, canları qədər əziz olan vətən Şuşanı məcburən tərk etməli idi Həsənovlar ailəsi...”.Buradakı bəzi faktları biz yazının əvvəlində yada saldıq. Ancaq indi bizim diqqətimizi cəlb edən, qəhrəman yetirən ailənin özünün təbiətidir. Onlar şuşalıdırlar. Biz onların timsalında şuşalıların kimliyini görürük. Şuşalılar üçün Şuşanın itkisi nə deməkdirsə, elə Nurlan üçün də o deməkdir. Yəni ruh etibarı ilə ailə Nurlanı elə Şuşa üçün böyütmüşdü. Geniş mənada, daha əhatəli mənada, yəni Nurlan elə vətən üçün böyümüşdü.

***10.08.2023***